Təhsil naziri Misir Mərdanov iştirakçıları səmimi salamlayıb və onlara bu olimpiadada uğur qazanmağı arzulayıb. Nazir bildirib ki, Ətraf Mühitin Mühafizəsi IV Beynəlxalq Layihə Olimpiadası Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Neft Şirkəti, İctimai Televiziya və Radio Yayımları Şirkətinin dəstəyi, "Çağ" Öyrətim İşlətmələri Şirkətinin təşkilatçılığı ilə həyata keçirilir. Nazir ekologiya və təbiəti mühafizə problemlərinə həsr olunan bu ənənəvi olimpiadada iştirakçıların sayının ildən-ilə artdığını, bu il 33 ölkədən 300-dək iştirakçının yarışacağını qeyd edib.

Misir Mərdanov bildirib ki, 2010-cu il ölkə prezidenti cənab İlham Əliyev tərəfindən "Ekologiya ili" elan olunub. Məhz bu baxımdan olimpiadanın mühüm əhəmiyyət daşıdığını nəzərə çatdıran nazir bu işin təşkilində əməyi olan şəxslərə təşəkkürünü bildirib. Nazir olimpiada iştirakçılarına Azərbaycanın tarixi, milli mədəniyyəti və təhsil sahəsi ilə tanış olmağı tövsiyə edib.

Görüşdə "Çağ" Öyrətim İşlətmələri Şirkətinin İdarə Heyətinin sədri Ənvər Özərən Ətraf Mühitin Mühafizəsi IV Beynəlxalq Layihə Olimpiadasına dair fikirlərini bildirib.

Sonda Gürcüstan, Malayziya və Türkiyədən olan iştirakçılar bu görüşdən məmnun olduqlarını vurğulayıblar.